**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**БАКЫ DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TALEH VƏZİR OĞLU CƏFƏROV**

# XIX-XX ƏSRLƏRDƏ ERMƏNİ DİASPORUNUN FORMALAŞMASI VƏ ANTİTÜRK FƏALİYYƏTİ

**İxtisas: 5503.02-Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **O.B.SULTANOV**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **Ə.İ.MUXTAROVA**

tarix üzrə fəlsəfə doktoru **H.N.HƏSƏNOV**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "____"__________ 2016-cı il tarixli iclasında, saat ___ 00-da olacaqdır.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"__________2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:**
tarix üzrə elmlər doktoru, professor **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süqutunun sürətlənməsi və ictimai-siyasi şəraitin dəyişməsi ilə əlaqədar olaraq ermənilərin türk dünyasına qarşı gizli və aşkar surətdə həyata keçirdiyi siyasətin ətraflı öyrənilməsi üçün münbit şərait yarandı. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra XX əsrdə azərbaycanlılara qarşı soyqırımların və deportasiyaların törətdiyi ağrı-acıların doğru-dürüst şəkildə araşdırılması məsələsi aktuallıq kəsb etməyə başladı. Ümummilli lider Heydər Əliyevin imzaladığı müəyyən sənəd və fərmanlar[1] tarixçilər qarşısında yeni vəzifələr qoydu. İdeoloji buxovlardan azad olan tarixçilər qısa müddət ərzində bu istiqamətdə milli ruhda əsərlər nəşr etdirdilər. Bu əsərlərdə uzun illər gizli qalmış məsələlər, "tamamilə məxfi" qrifi ilə arxivlərdə saxlanılan sənədlər tədqiqata cəlb olundu. XIX əsrin ortalarından Azərbaycan torpaqlarında məskunlaşmağa başlayan ermənilərin, xaricdəki erməni diaspor təşkilatlarının antitürk, antiazərbaycan siyasəti işıq üzü görən əsərlərdə tədqiq olunmadığından problemin aktuallığını artırmışdır.

XIX-XX əsrlərdə xalqımızın üzləşdiyi ağrı-acıların, xüsusilə də erməni daşnak birləşmələrin etnik-milli zəmində həyata keçirdiyi deportasiya və soyqırımı siyasətinin arxasında duran başlıca siyasi qüvvələrdən biri də erməni diasporudur. Bu gün iki əsrlik tarixi dövr ərzində türk dünyasına qarşı təcavüzkarlıq, işğalçılıq planlarından əl çəkməyən erməni diasporunun dağıdıcı fəaliyyətinin dərindən araşdırılması və ifşası xüsusi aktuallıq kəsb edir. Problemin müxtəlif aspektləri bir çox türk, erməni, rus və Qərb tədqiqatçıları tərəfindən araşdırılsa da, Azərbaycan tarixşünaslığında ayrıca tədqiqat predmetinə çevrilməmiş, vətən tarixşünaslığında "XIX-XX əsrlərdə erməni diasporunun formalaşması və antitürk fəaliyyəti" kompleks və sistemli araşdırılmamışdır.

XX əsrin 80-90-cı illərindən başlayaraq diaspor institutu ilə bağlı çoxsaylı elmi araşdırmalar aparıldı. A.Ayvazyan, S.Arutyunov, P.Kazaryan, E.Bajanov, A.Vişnevski, A.Qapeyeva, S.Qradirovski və A.Tupişın,

---

[1] Azərbaycan Respublikası Prezidenti H.Əliyevin erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması probleminin həlli haqqında 22 avqust 2001-ci il fərmanı. "Xalq qəzeti" qəz., Bakı, 2001, 23 avqust; "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 26 mart 1998-ci il fərmanı. "Azərbaycan" qəz., Bakı, 1998, 27 mart

V.Dyatlov və E.Melkonyanın əsərlərində[1] gəlinən ümumi nəticəyə görə, “diaspor” xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşamasıdır. Bu tip əsərlər, öz növbəsində diaspor probleminin nəzəri aspektlərini özündə əks etdirdiyi üçün elmi əhəmiyyətini qoruyub saxlamaqdadır.

Erməni diasporunun təşəkkülü və formalaşması prosesi XIX əsrin əvvəllərindən başlamış, XX əsrin 90-cı illərində başa çatmışdır. Diasporun formalaşmasına bir sıra amillərin mühüm təsiri olmuşdur. İlk növbədə, kilsənin təsiri altında olan mühacir ermənilər məskunlaşdıqları ərazilərdə kilsə tikintisi, ticarət evlərinin inşası, mətbəə sahəsinin inkişafına xüsusi maraq göstərirdilər. Tədricən həmin yerlərdə mühüm infrastruktura malik iri erməni koloniyaları salınmaqda idi. Erməni koloniyaları antik yunan koloniyaları və müasir Qərb koloniyalarından tamamilə fərqlənirdi. Erməni koloniyaları heç bir zaman hərbi və ya siyasi güc mərkəzinə çevrilə bilmədiyi kimi, mədəni bir üstünlük də əldə edə bilmədi.[2] Erməni koloniyalarında əhali mühacir ermənilərin kütləvi köçü nəticəsində sürətlə artırdı. Vaxtilə “Erməni vilayəti”ndə gəlirlər və dövlət mülkiyyəti idarəsinin keçmiş sədri olmuş İ.Şopenin hesablamalarına görə, 1852-ci il üçün dünyanın müxtəlif yerlərində koloniyalarda yaşayan ermənilərin sayı 2 milyon təşkil etmişdir[3]. XX əsrin 50-60-cı illərində isə bu rəqəm 3-3,5 milyon nəfərə

---

[1] Айвазян А. О современном кризисе армянства и фиктивности армянского государства. Голос Армении, 19 сентября 2002 г. http://golos.arminco.com; Арутюнов С. Диаспора это процесс // Этнографическое обозрение. Москва; 2000, №2, с. 17-31; Казарян Р Л. Историко-демографичкское обшина армянской диаспоры в Якутии и современность. www.armkc.ru; Бажанов Е. Актуальные проблемы международных отношений. / Избранные труды. В 3 томах, Том 1, 2001, 464 с.; Вишневский А. Распад СССР: этнические миграции и проблема диаспор. // Общественные науки современности, 2000, №3, с. 47-72; Гапеева А. Национально-культурные центры как фактор стабильности межкультурных отношений в полиэтническом обществе: Дис. kанд. Культурологи. Улан-Удэ, 2002, 160 с; Градировский С. Россия и постсоветские государства: искушение диаспоральной политикой // Диаспоры, М., 2000, №2, с 75-92; Градировский С., Тупищын А. Диаспоры в меняющемся мире // Содружество НГ (Ежелисячное приложение к «Независмой газете») 1998, июль, №7, с. 252-283; Дятлов В. Диаспора: попытка определится в понятиях // Диаспоры, Москва; 1999, №1, с. 15-25; Дятлов В., Мелконян Е. Армянская Диаспора: очерки социокультурной типологии. Ереван; 2009, 207 с.

[2] Elif Arslan. Ermeni diasporasının Ermenistanın dış politikasına etkisi. Ermeni sorununun ortaya çıkışında Fransanın rolu. Kocaeli: Sosial Bilimler Enstitusu Yayınları, 2006, s.30, 235 s.

[3] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Спб: Типография Императорской Академии Наук. 1852, с. 18, 1231 с.

qədər yüksəlmişdir[1]. Nəticədə bir əsr müddətində diasporun dinamikasında 60%-lik artım tempi qeydə alınmışdır. Müasir dövrdə dünyanın 5 qitəsində təqribən 70-dən artıq ölkədə 5-6 milyon nəfərə yaxın təşkilatlanmış erməni diasporu fəaliyyət göstərir.

Erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti bütün regionlarda eyni vaxtda, bərabər surətdə getməmişdir. Belə ki, XX əsrin əvvəllərində diasporun siyasi mərkəzini Suriya-Livan-Misir ölkələri təşkil edirdisə, II Dünya müharibəsindən sonra mərkəz Parisə köçmüş, əsrin sonlarından etibarən ABŞ-ın Kaliforniya ştatı diasporun ağırlıq mərkəzinə çevrilmişdir[2].

XX əsrdə türk dünyası terrorçu erməni diaspor təşkilatlarının maliyyə dəstəyi ilə bir çox faciələrin hədəfinə çevrilmişdir. Əsrin əvvəllərində Azərbaycanda baş vermiş hadisələrə şahidlik etmiş M.B.Məmmədzadə [3], M.S.Ordubadi[4], M.M.Nəvvab[5] və digərləri 1905-1907-ci illərdə daşnak quldur dəstələrinin Bakı ilə yanaşı, digər bölgələrdə azərbaycanlılara qarşı həyata keçirilmiş terror, milli qırğın siyasətinin arxasında terrorçu diaspor təşkilatları və onlara bu işdə havadarlıq edən böyük dövlətlərin dayandığını göstərirdilər. M.M.Nəvvab erməni millətçilərinin əvvəl Osmanlı dövlətində, sonra isə Rusiya şəhərlərində xüsusi qımdatxanalar (müasir erməni diaspor mərkəzləri nəzərdə tutulur - T.C) yaratdığını və onlara ziyalılar, cavanlar, sənətkarlar və erməni icmasının başqa nümayəndələri cəlb olunduğunu yazırdı. Qımdatxanalarda Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbi sursat, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədilə varlı erməni təbəqələrindən pul topladılırdı[6]. XX əsrdə Qərbi Azərbaycandan azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyanın əsas təşəbbüskarları erməni kilsəsi, xaricdəki erməni terrorçu təşkilatları və onların havadarları oldu.

Erməni tarixçilərinin əsərlərində birmənli olaraq erməni diasporunun − xarici və daxili diaspor şəklində formalaşdığı fikri öz əksini tapmış, xüsusilə

---

[1] Bilal Şimşir. Ermeni Meselesi(1774-2005). Ankara: Bilgi Yayınları, 1999, s. 72-78, 233 s.

[2] Gerard S. Libaridian. Ermenilerin devletleşme sınavı. İstanbul: İletişim, 2005, s. 169, 220 s.

[3] Məmmədzadə Mirzə Bala. Ermənilər və İran. Bakı: Azərbaycan, 1993, 40 s.

[4] Ordubadi M.S. Qanlı illər. Bakı: Elm və Təhsil, 2012, 120 s.

[5] Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: "Azərbaycan" nəşriyyatı, 1993, 128 s.

[6] Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbayan nəşriyyatı, 1993, s. 13-14

1980-ci illərin sonlarından etibarən Avropa ölkələri və ABŞ-da nəşr edilən bütün nəşrlərdə yer almışdır. Bu əsərlərdə xarici diaspor kimi Ermənistanı tərk edərək Avropa və Amerika ölkələrinə köçüb gedən və orada yaşayan ermənilər, daxili diaspor isə keçmiş SSRİ məkanına köç edən ermənilər nəzərdə tutulur. Erməni tarixçilərinin əsərlərində Yaxın Şərq ölkələrinə köç edən və orada yaşayan ermənilər də daxili diaspora aid edilir. Onların fikrincə, daxili diaspor xarici diaspora nisbətən təşkilatlanma baxımından geri qalmaqdadır.

Mövzunun aktuallığını əsaslandıran əsas məsələlərdən biri də erməni tədqiqatçılarının, hətta bəzi Qərb tarixçi-politoloqlarının saxtalaşdırdığı Osmanlı sultanın imzaladığı 1915-ci il "Köç" haqqında qanundur. Ümumerməni düşüncəsinə görə, sultanın qəbul etdiyi bu qanunla guya 1,5 milyon erməni bilərəkdən "məhv" edilmiş, yerdə qalan yüz minlərlə erməni isə Yaxın Şərqdən tutmuş Latın Amerikası ölkələrinə qədər çox geniş coğrafiyaya səpələnmiş, beləliklə erməni diasporunun rüşeymi formalaşmağa başlamışdır. Buradan belə nəticə çıxır ki, guya, 1915-ci ilə qədər dünyada bir dənə də olsun erməni koloniyası, icması, diasporu deyilən qurumlar mövcud olmamışdır. Məhz dissertasiyanın aktuallığını artıran başlıca amillərdən biri də bu kimi əsassız iddiaların tutarlı faktlarla ifşa edilməsidir.

Müasir dövrdə yəhudi, erməni, ərəb, yunan, çin, hind diasporları güclü diasporlar hesab olunur. Onların içərisində erməni diasporu etnosunun tarixdə vətənlərinin olmaması, öz ətrafında mənsub olduğu xalqı daha çox təmsil edən nümayəndələrini cəlb edə bilməsi, mütəşəkkilliyi, milli həmrəylik və milli birlik ideyalarını bacarıqla mənimsəməsi və təbliğ etməsi, ümummilli mənafelərini şəxsi mənafelərindən üstün tutması, mənsub olduğu təşkilatların çıxardığı qərarları dönmədən yerinə yetirməsi və fəaliyyətini öz xalqı, dövləti ilə sıx əlaqəli şəkildə qurması ilə digər diasporlardan fərqlənir[1].

Mövzunu aktuallaşdıran amillərdən biri və ən başlıcası son illərdə Türkiyə və Azərbaycanın iqtisadi cəhətdən sürətlə inkişafı, hər iki ölkənin beynəlxalq və regional layihələrdə yaxından iştirakı erməni diaspor təşkilatlarını, eyni zamanda terrorçu Ermənistan hökumətini daha çox narahat etməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya siyasətinə ciddi təsiri olan böyük dövlətlərlə müntəzəm və məhsuldar iş aparması, onilliklər boyu formalaşmış stereotipləri, yanlış yanaşmaları dağıtmağa çalışması, ikili standartlara və ermənipərəst qüvvələrin təzyiqlərinə baxmayaraq, beynəlxalq ictimaiyyətin aşkar faktlar qarşısında həqiqəti tez-tez etiraf

[1] Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 358 s, s.48

etmələri[1], son illər Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi ölkəmizin hərtərəfli inkişafının təntənəsi kimi qiymətləndirilməlidir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi XIX-XX əsrləri əhatə edir. Bu dövr dünyanın geosiyasi xəritəsində böyük dəyişikliklərlə xarakterizə olunur. XIX əsrin əvvəllərindən Osmanlı imperiyasının tənəzzüllünün sürətlənməsi, ölkənin iqtisadi böhranla üz-üzə qalması nəticəsində minlərlə ermənininin dünyanın müxtəlif ölkələrinə səpələnməsi və diasporun rüşeymini formalaşdırması kimi xarakterizə etmək olar:

− Bu dövrdə Osmanlı dövləti tədricən regionda maraqları kəsişən böyük dövlətlərin təsir dairəsinə düşür, bunun nəticəsində ərazilərinin bir hissəsini itirir;

− Osmanlı ərazilərini tərk edib Şimali Amerika (ABŞ, Kanada), Avropa (Fransa, İngiltərə, Polşa, Ukrayna, Rusiya), Yaxın Şərq ölkələrinə (Misir, Suriya, İran, İraq, Livan) və Avstraliyaya köç edən ermənilərdən ibarət erməni icmaları formalaşır, erməni icmaları daxilində gedən sosial və etnik proseslərin əsasında erməniçilik ideologiyası və erməni Qriqoryan kilsəsinin irqçi fəaliyyəti dayanırdı;

− Bəhs olunan dövrdə dünyanın 70-dən artıq ölkəsində güclü maliyyə resursları və iqtisadi dayaqlara malik beş-altı milyondan artıq ermənini öz ətrafında birləşdirən diasporun coğrafiyası genişlənir, strukturu daha da möhkəmlənir, xaricdəki erməni diaspor təşkilatları ilə mövcud ölkələrin dövlət və qeyri-hökumət təşkilatları arasında əlaqələr qurulmağa başlanır, ictimaiyyətdə caşqınlıq yaradacaq "əzabkeş", "dünyanın ilk şəhid milləti" obrazları formalaşdırmaqla Türkiyə və Azərbaycana qarşı beynəlxalq güclər səfərbər edilir, etnik separatizm və dövlət terrorizmi siyasəti aparan Ermənistan iqtidarının təcavüzkarlıq planları daha da genişlənir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti kimi XIX-XX əsrlərdə erməni diasporunun formalaşması və antitürk fəaliyyəti seçilmişdir. Erməni diasporunun formalaşması prosesinə təsir edən etnik və sosial amillər, erməni kilsəsi və erməniçiliyin diasporun formalaşması prosesinə təsirləri, erməni diasporunun coğrafiyası, strukturu, dövlət və qeyri-hökumət təşkilatları ilə əlaqələri, maliyyə mənbələri, həmçinin dünyanın müxtəlif regionlarına səpələnmiş ermənilərin diaspor quruculuğu, təşkilatlanma işinin təşkili və antitürk fəaliyyətinin istiqamətləri, ermənilərin "soyqırım"ı iddiaları və onun nəticələri, diasporun başlıca fəaliyyət istiqamətlərindən biri kimi

---

[1]Azərbaycanlıların soyqırımı: tarixin qanlı səlnaməsi, II cilddə. II cild. Bakı: Oskar, 2012, 444 s, s.3

erməni terrorizmi, Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə fəaliyyəti tədqiqatın əsas predmetini təşkil edir.

**Problemin öyrənilmə dərəcəsi.** Problemin araşdırılması prosesində mənbələrin müxtəlifliyi nəzərə alınaraq erməni diasporunun formalaşması və onun antitürk fəaliyyətindən bəhs edən tarixi əsərlər aşağıdakı kimi qruplaşdırılmışdır.

Burada birinci qrup və Azərbaycan tarixşünaslığına aid olduqca məhdud sayda əsərlər daxildir. Dissertasiya işində tədqiqat obyekti olaraq seçilmiş mövzunun müəyyən aspektlərinə Azərbaycan tədqiqatçılarının bir sıra ümumiləşdirilmiş əsərlərində rast gəlmək mümkündür. Akademik R.Mehdiyev[1], Ş.Məmmədov[2] və Z.Əliyevin[3] əsərlərində erməni diasporunun təşəkkülü və formalaşması prosesi, təşkilatlanma məsələləri, Ermənistanın terorizmi dövlət siyasətinin tərkib hissəsi kimi dəstəkləməsi, qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılmasında erməni diaspor təşkilatlarının antitürk fəaliyyəti tədqiq edilmişdir.

Azərbaycan tarixçilərindən − A.İsgəndərov[4], S.Hacıyev[5], M.Qasımlı[6], B.Nəcəfov[7], A.Məmmədli[8], A.Paşayev[9], S.Seyidova[1], H.Cabbarlı[2], M.Musa-

---

[1]Mehdiyev R. Gorus-2010: absurd teatr mövsümü. Bakı: Şərq-Qərb, 2010, 77 s.

[2] Məmmədov Ş. Erməni diasporası və terror // Tarix və onun problemləri, Bakı, 2008, №3, s. 81-86; Məmmədov Ş. Erməni terroru və Böyük dövlətlərin ikili standartlar siyasəti (XIX əsr-XXI əsrin əvvəli). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Naxçıvan: 2010, 169 s.

[3] Əliyev Z. Dünya diasporları. Bakı: Qismət, 2005, 349 s.

[4]İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920. Bakı: Adiloğlu, 2006, 396 s.

[5]Hacıyev S. I Dünya müharibəsi illərində Türkiyə-Rusiya münasibətlərində erməni məsələsi. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: 1996, 168 s.; XX əsrdə Türkiyəyə qarşı erməni və PKK terroru. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: 2007, 368 s.; Erməni terroru günümüzün bəlasidır. BDU-nun 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları. Humanitar Elmlər, Bakı:, Bakı Universiteti Nəşriyyatı, 2009, s. 20-22; "Erməni məsələsi" faktların dili ilə. "Azərbaycan qəz"., Bakı, 2001, 18 dekabr

[6]Qasımlı M. "Erməni məsələsi"ndən erməni soyqırımına: gerçək tarix axtarışında (1724-1920). Bakı: Mütərcim, 2014, 464 s.; SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I cild. 1960-1979. Bakı: Adiloğlu, 2007, 560 s.

[7]Nəcəfov B. Düşmənin iç üzü. XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. 3 cilddə, I cild. Bakı: Çaşıoğlu, 2007, 438 s.

[8] Məmmədli. A. Gəlmələr: ermənilərin gerçək tarixi. Bakı: Çaşıoğlu, 2009, 444 s.

[9] Paşayev A. XIX-XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar(arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 2011, 328 s.

M.Musayev[3], Ə.İsmayılov[4] və Salehbəyin[5] əsərlərində bəhs olunan dövrdə “erməni məsələsi”nin yaranması, ermənilərin Qafqaza köçürülməsi, erməniçilik ideologiyası, XIX əsrin ortalarından başlayaraq Osmanlı ermənilərinin par-tiya və cəmiyyətlər halında təşkilatlanması, Türkiyənin şərq vilayətlərində baş verən erməni qiyamları, 1918-ci il mart qırğınları, ermənilərin siyasi hərəkatları, erməni miqrasiyaları və terror fəaliyyətlərinin ayrı-ayrı məqamları araşdırılmışdır.

H.Cabbarlının əsərini problemin öyrənilməsi istiqamətində atılmış ilk tədqiqatlardan biri hesab etmək olar. Əsərdə dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilərin sayı, maliyyə qaynaqları, Ermənistan-diaspor əlaqələri və onların diasporun antitürk fəaliyyətindəki iştirakı təfərrüatı ilə işıqlandırılmışdır.

M.Musayevin əsərində ermənilərin Amerika qitəsinə köç edənə qədərki tarixi, onların dünyaya səpələnməsi məsələsi, Amerika qitəsində ermənilərin sosial-iqtisadi durumu, yaratdıqları təşkilat və cəmiyyətlərin antitürk fəaliyyəti ilə bağlı faktlar əsaslandırılmışdır.

Ş.Məmmədovun dissertasiyasında Ermənistan-diaspor əlaqələrinin fəallaşması və antitürk fəaliyyətinin xüsusiyyətləri, başlıca istiqamətləri, həmçinin beynəlxalq miqyasda geniş terror şəbəkəsinə malik olan və iri miqyaslı terror aktları törədən, erməni terror təşkilatlarını maliyyələşdirən Ermənistan iqtidarı, xüsusilə xarici diaspor təşkilatlarının fəaliyyətinə faktlarla aydınlıq gətirilmişdir.

İkinci qrupa Türkiyə və Qərb tarixşünaslığına aid edilən əsərlər daxildir. Azərbaycan tarixçilərindən fərqli olaraq Türkiyə tarixçiləri erməni diasporunun formalaşması, onun antitürk fəaliyyətini elmi tədqiqata cəlb etmiş, problemin obyektiv və dərindən öyrənilməsinə cəhd göstərilmişdir. Türkiyə tarixçilərinin bir hissəsi əsərlərini yalnız türk mənbələrinə istinadən yazdığından bu əsərlərdə birtərəflilik hökm sürür. Erməni diasporunun antitürk fəaliyyətinə həsr olunmuş əsərlər içərisində H. Çakıllıkoyak[6],

---

[1] Seyidova S. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Beynəlxalq təşkilatların mövqeyi. Bakı: ADPU-nun mətbəsi, 2014, 411 s.

[2] Cabbarlı H. Ermənistanın xarici siyasəti 1991-2012. Bakı: 2014, 422 s.

[3] Musayev M. Ermənilər Amerikada. Bakı: Nurlar, 2012, 472 s.

[4] Исмаилов А. Тайны и явь армянства. Баку: Муаллим, 2006, 264 с.

[5] Салехбей. Армянство. Баку: Элм, 1994, 439 с.

[6] Hüseyin Çakıllıkoyak. Diasporada ermeni kimligi Paris ve Halep Örnegi. İstanbul: Yeditepe yayınevi, 2005, 360 s.

S.Laçıner[1], Ş.Kantarcı[2], E.Arslan[3], M.Mutluer[4], Z.Boyacıoğlu[5], E.Büke[6], C.Taşkıran[7], A.Çevik., S.Çevik[8] və digərlərinin əsərləri problemlə bağlı hərtərəfliliyi və geniş mənbə bazası ilə seçilir. Onların əsərlərində erməni diasporunun strukturu, coğrafiyası, maliyyə mənbələri, dünyanın müxtəlif ölkələrindəki erməni diaspor təşkilatları və siyasi partiyalarının antitürk fəaliyyətinin xüsusiyyətləri, eləcə də erməni terroru və qondarma "erməni soyqırımı"nın siyasi mahiyyəti və "Hay Dad" doktrinasının başlıca hədəfləri əhatəli şəkildə tədqiq edilmişdir. Türk tarixçisi H.Çakıllıkoyakın əsərində diasporda erməni kimliyinin təşəkkülü, həmçinin Yaxın Şərq ölkələri ilə Fransadakı erməni diasporunun dinamikası qarşılaşdırılır, diaspora məxsus siyasi partiyaların fəaliyyəti, ABŞ, Fransa, Livan, Suriya, Misir və digər ölkələrdə erməni diasporunun təşkilatlanma səviyyəsi müxtəlif prizmalardan təhlil edilir. Türkiyə tarixçisi Ş. Kantarcının iri həcmli tədqiqat işində dünyanın müxtəlif ölkələrində təşkilatlanan erməni diasporunun səciyyəsi, erməni icmalarının coğrafiyası, ABŞ-dan Anadoluya missioner axınlarının səbəb və nəticələri, dias-porun tanınmış terrorçu simaları və onların dövlət və hökumət strukturlarında təmsil olunmaları, ABŞ-da fəaliyyət göstərən erməni siyasi quruluşları, diaspor təşkilatlarının Ermənistanın xeyrinə lobbiçilik fəaliyyətləri zəngin faktlarla tədqiq edilmişdir.

S.Laçınerin əsərində XX əsrin 20-ci illərindən başlayaraq diasporun Türkiyə və Azərbaycan əleyhinə fəaliyyətinin istiqamətləri, erməni diasporunda kommunist-milliyətçi çəkişmənin Türkiyəyə təsirləri, diasporda ermənilərə qarşı erməni terroru, II Dünya müharibəsi illərində nasist-daşnak əlaqələrinin qurulması, İ.Stalinin erməni diasporunu "zərərsizləşdirmək" cəhdləri, erməni diaspor təşkilatlarına qarşı Türkiyə-Azərbaycan

---

[1]Sedat Laçıner. Ermeni Sorunu, Diaspora ve Türk Dış Politikası. Ankara: Karınca Yayınları, 2008, 654 s.

[2]Şenol Kantarcı. Amerika Birleşik Devletlerinde ermeniler ve Ermeni Lobisi. Ankara: Lalezar, 2007, 434 s.

[3]Elif Arslan. Ermeni diasporasının Ermenistanın dış politikasına etkisi.Ermeni sorununun ortaya çıkışında Fransanın rolu. Kocaeli: Sosial Bilimler Enstitusu Yayınları, 2006, 235 s.

[4]Mustafa Mutluer. Ermeni diasporası ve Türkiye-Ermenistan ilişkileri // Jeopolitik Bilimsel Araştırmalar Dergisi, İstanbul, yıl 1, sayı 2, s. 77-89

[5]Zeyneb Boyacıoğlu. Ermeni diasporasının türk dış politikasına etkileri. Konya: Sosyal Bilimler Enstitüsü, 2005. 233 s.

[6]Emrah Büke. Birleşik Devletler çatısı altında ermeniler: Oluşumlar ve Faaliyyetler, Kök Sosyal ve Stratejik Araştırmalar dergisi, cilt XII, sayı 2, 2010, s. 65-75

[7]Cemalettin Taşkıran. Ermeni diasporası nedir? Ne istiyor? // Ermeni Araştırmaları 1, Türkiye Konqresi Bildirileri, III cild, Ankara, ASAM-EREN, 2003, 311 s.

[8] Abdülkadir Çevik., Senem Çevik. Ermeni diaspora kimliginin "öteki" ihtiyacı // Türk yurdu, ekim 2009, sayı 266, s. 13-18

Diasporları İttifaqının yaradılması və digər məsələlər geniş işıqlandırılsa da, Türkiyə və Azərbaycanın erməni diaspor təşkilatları əleyhinə fəaliyyətinə çox səthi yanaşılmışdır.

Dissertasiya yazılarkən Türkiyənin digər tədqiqatçılarının da əsərlərinə diqqət yetirilmişdir. A.İyigüngör[1], H.Babacan[2], Ö.Fatih[3], K.Kasım[4], G.Erol[5], E.İlter[6], S.Akgönül[7], H.Özdemir[8], F.Yaldız[9] və H.S.Yeniçerin[10] əsərlərində diasporun dinamikası, cinayətkar əməlləri, digər regionlarda yaşayan diaspor ermənilərinin sosial vəziyyəti, diaspor cəmiyyətləri və s. haqqında maraqlı araşdırmalar aparılmışdır.

Türkiyəli tarixçilər tərəfindən problemin yalnız erməni diasporunun Türkiyə əleyhinə olan fəaliyyəti tədqiqata cəlb edildiyindən Azərbaycan, eləcə də Mərkəzi Asiyanın türk dövlətlərinə qarşı erməni diasporunun antitürk fəaliyyəti diqqətdən kənarda qalmışdır.

Problemin tədqiqi zamanı Qərb müəlliflərindən Samyuel A.Uimz[11], Erix Fayql[12], Tadeuş Svyatoçovski[1], Castin Makkarti və Karolin Makkarti[2]

---

[1] Aydan İyigüngör. The profile of the Armenian Diaspora in Germany // Ermeni Araştırmaları, sayı 3, Ankara, eylül-ekim-kasım, 2001, ss. 258-304

[2] Babacan Hasan. Birinci Dünya savaşı öncesinde yurt dışına göç eden ermeniler ve ermeni diasporasının oluşumu. Stradigma, Nisan, 2003, http://www.stradigma.com/türkce/ozel/makale_04.html

[3] Özbay Fatih. Ermeni diasporası Türkiye-Rusia İlişkileri. İstanbul: TASAM stratejik Rapor, №5, Nisan, 2005, 276 s.

[4] Kamer Kasım. Diasporanın Ermenistan Dış politikasına etkisi // 2023 dergisi, sayı 12, Ankara, 2002, s. 42-46

[5] Göka Erol. Ermeni Diasporasının psikoloji // Ermeni Araştırmaları 1, Türkiye Kongresi Bildirileri, cilt II, Ankara, 2003, s. 41-49; Göka Erol. "Ermeni sorunu"nun (gözden kaçan) psikolojik boyutu // Ermeni Araştırmaları, sayı 1, mart-nisan-mayıs, 2001, s. 128-136

[6] Erdal İlter. Ermeni kilisesi ve terör. Ankara: Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Yayınları, sayı: 3, 1996, 175 s.

[7] Akgönül S. Fransa ermeni toplumu ve Türkiye: propaganda ve lobicilik // Ermeni Araştırmaları, Sayı 5, Bahar 2002, s. 222-251

[8] Haluk Özdemir. Diaspora Araratı ararken: ermeni kimligi ve soykırım iddiaları // Ermeni Araştırmaları, sayı 14-15, yaz-Sonbahar, 2004, s. 75-97

[9] Fırat Yaldız. Diaspora kavramı bağlamında on iki ada türk toplumu // Ege Stratejik Araştırmalar Dergisi, cilt 5, sayı 2, 2014, s. 43-64, http://esa:un.org/unmigration/wallchart2013/htm

[10] Hümeyra Seren Yeniçeri. William Saroyanın eserlerinde etnik kimlik ve diaspora, T.C. Tarih Sultan Mehmet Vakif Üniversitesi medeniyyetler ittifakı enstitüsü medeniyyet araştırmaları anabilim dalı (yüksek lisans tezi), İstanbul 2014, 95 s.

[11] Səmyuel A. Uimz. Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları-I cild. Bakı: Oka Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya Şirkəti, 2004, 386 s.

[12] Erich Feigl. Un My The de la Terreur, la terrorisme Armenien-ses origines et ses Ganses, Salzbourg, 1991, 256 s.

Makkarti [2] və digərlərinin əsərlərinə müraciət edilmişdir. Qərb tədqiqatçılarının əsərləri içərisində C.Makkarti və K.Makkartinin əsəri mövzumuzla bağlı bəzi məsələlərə aydınlıq gətirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Türkiyə arxiv sənədlərinə istinad edilməklə yazılmış bu əsərdə bütövlükdə "Erməni məsələsi"nin meydana gəlməsinə təsir göstərən amillər, diasporun Qərb dövlətləri tərəfindən formalaşdırılması, ABŞ-da erməni koloniyalarının salınması prosesi, Erməni-Amerika lobbi təşkilatlarının Senatda Azərbaycana qarşı apardıqları fəaliyyətin istiqamətləri, diaspor təşkilatlarının terrorçuluq əməlləri, erməni kilsəsinin terroru dəstəkləyən və onu birbaşa maliyyələşdirən qurumlardan birinə çevrilməsi, Ermənistanın Azərbaycan torpaqlarını qəsb etməsi və s. məsələlər kompleks şəkildə araşdırılır.

Amerika tədqiqatçısı Səmyuel A.Uimzin əsərini problemin öyrənilməsi, eləcə də Azərbaycan həqiqətlərinin dünya miqyasında təsdiqi baxımından dəyərli mənbə hesab etmək olar. Müəllif Ermənistanın 1992-ci ildə Rusiya Federasiyasının köməyi ilə Azərbaycana elan olunmamış müharibə etdiyini, zor gücünə bir milyondan çox müsəlmanı ev-eşiyindən qovmaqla torpaqlarının 20 faizini işğal etdiyini, erməni diaspor və lobbi təşkilatlarının ABŞ hökumətinə hiylə gəlməklə 1,4 milyard dollarlıq "xarici yardım" aldığını, İsus Xristos adından Amerika xristian qruplarının topladığı milyonlarla dolların terrorçu Ermənistana göndərildiyi qeyd edilir.

Üçüncü qrup erməni müəlliflərinin "tədqiqatlarıdır". Tədqiqat mövzusunun mahiyyətini açmaq məqsədilə problemin tədqiqində erməni müəlliflərinin əsərlərindən istifadə olunmuşdur. Erməni müəlliflərindən G.G.Pirumyan[3] G.S.Libaridiyan[4], A.Ayvazyan[5], E.Melkonyan[6] V.P.Qriqoryan[7], L.Abramyan[1] və R.Panossiyanın[2] əsərlərində erməni xalqının ağrı və

---

[1]Svyatoçovski T. Rusiya və Azərbaycan:sərhədyanı bölgə keçid dövründə. (ingiliscədən tərcümə). Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2000, 373 s.

[2]Castin M., Karolin M. Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik. Bakı: Səda, 2011, 191 s.

[3] Pirumyan G.G. Diasporadakı taşnaklar. Ermeni belgeleriyle ermeni soykırımı yalanı. İstanbul: Kaynak Yayınları, 2007, 172 s.

[4]Gerard S. Libaridian. Ermenilerin devletleşme sınavı. İstanbul: İletişim, 2005, 220 s.

[5] Айвазян А. О современном кризисе армянства и фиктивности армянского государства. Голос Армении, 19 сентября 2002 г. http://golos.arminco.com

[6]Дятлов В., Мелконян Е. Армянская Диаспора: очерки социокультурной типологии. Ереван: Институт Кавказа, 2009, 207 с.

[7]Григорян В. П. История армянский колонии Украины и Польши (армяне в подолии). Ереван.: Издателство АН Арм. ССР. 1980, 291 с.

iztirablar çəkməsi, dünyanın "ilk şəhid milləti", "soyqırıma məruz qalmış xalqı" kimi təqdim olunur. Türklərə qarşı nifrət hissləri ilə erməni diaspor təşkilatlarının antitürk fəaliyyəti erməni xalqının müstəsna xidməti kimi verilir və buna haqq qazandırılmağa cəhd edilir. Erməni müəllifləri soydaşlarının dünyanın müxtəlif ölkələrinə miqrasiyasının təbii proses olmadığı, bunun Osmanlı imperiyasında xristianlara, o cümlədən ermənilərə bəslənilən nifrətin nəticəsi kimi qiymətləndirilir, erməni silahlı dəstələrinin dinc türk əhalisinə qarşı apardıqları soyqırımı siyasəti fəxrlə milli-azadlıq mübarizəsi kimi təqdim edilir.

90-cı illərdə Ermənistan prezidenti Levon Ter-Petrosyanın təhlükəsizlik məsələləri üzrə müşaviri olmuş və uzun illər ABŞ-da erməni diasporunun "uğurları" üçün çalışmış G.S.Libaridiyanın əsərində diasporun Ermənistanın taleyində köklü dəyişiklik edə biləcək qədər potensialının olduğu, respublikanın ilk illərində idarəetməyə daha çox diasporda yetişən kadrların cəlb edilməsi, diaspor ermənilərinin gələcəklə yox, daha çox keçmişlə yaşamaları, onların vətənə dönmək arzularının olmadığı, diaspor ermənilərinin siyasi partiyalara üzv olmaqdan kütləvi surətdə imtina etməsini və bunun da səbəbini insan və maliyyə qaynaqlarının çoxunun məhz bu təşkilatların əlində olmadığı və idarə edilməməsi ilə əlaqələndirir.

Digər erməni müəllifi S.G.Pirumyanın əsərində Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra başlıca diaspor partiyaları olan Ramqavar-Azatakan ilə Daşnaksütyun arasında müəyyən məsələlərdə ciddi fikir ayrılıqlarının olduğu, diaspor təşkilatlarına rəhbərlik etmək uğrunda "Qafqaz sizə, ölkə xaricindəki koloniyalar bizə" istiqamətində gizli razılaşmanın əldə olunduğu öz əksini tapmışdır. S.G.Pirumyan daşnak partiyasının keçmiş lideri Ovanes Kaçaznuniyə istinad edərək Daşnaksütyun partiyasını keçmişin qalığı adlandıraraq, orqanizmin ehtiyac duymadığı, gərəksiz bir orqana bənzədir.

Erməni diasporu üzrə mütəxəssis E.Melkonyan və V.Dyatlovun irihəcmli monoqrafiyalarında diaspor anlayışının nəzəri aspektləri, ermənilərin miqrasiyalarının səbəb və nəticələri, diasporun formalaşmasında etnik təşkilatların rolu, erməni icmalarında sosial və mədəni proseslər tədqiq edilmişdir.

---

[1]Абрамян Л. Армения и Армянская Диаспора: расхождения и встреча. // 21-й Век, N2, 2005, с.137-155

[2] Panossian R. Homeland-Diaspora Relations and identity Differences, E. Herzig, M. Kurkchiyan, The Armenians Past and Present in the Making of National İdenty (New York: Routledge Gurzon, 2005), ss. 229-234

Tarixşünaslığın qısa xülasəsindən də aydın olur ki, "XIX-XX əsrlərdə erməni diasporunun formalaşması və antitürk fəaliyyəti" problemi Azərbaycan tarixşünaslığında ayrıca tədqiqat obyekti olmamışdır. Problemin Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan və Qərb müəlliflərinin əsərləri və arxiv sənədləri əsasında kompleks şəkildə öyrənilməsi tarixşünaslıqda mövcud boşluğun doldurulmasında əhəmiyyətli rol oynaya bilər.

**Tədqiqatın məqsəd və vəzifələri** mövzunun aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Tədqiqatın əsas məqsədi erməni diasporunun formalaşması prosesinə təsir edən amilləri müəyyənləşdirmək, müxtəlif qitələrdə mövcud olan erməni diaspor təsisatlarının təşkilatlandırılması və antitürk fəaliyyətinin xüsusiyyətlərini tədqiq etmək, Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsinin əsas motivlərini kompleks və sistemli şəkildə araşdırmaqdan ibarətdir. Məqsədə nail olmaq üçün konkret olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– erməni diasporunun formalaşması prosesinə təsir edən amillərin müəyyən edilməsi, diaspor təsisatlarının fəaliyyətinin araşdırılması, lobbiçilik işinin tədqiqi, diaspor ermənilərinin məskunlaşdıqları ölkələrdə milli kimlik və adət-ənənələrin qorunub saxlanılması və təbliği, icmalar daxilində gedən etnik və sosial proseslərin tədqiqi, eləcə də xaricdəki ermənilər arasında assimilyasiya hallarının qarşısının alınması ilə əlaqədar həyata keçirilən tədbirlərin öyrənilməsi, erməni diasporunun coğrafiyası və strukturunun müəyyənləşdirilməsi, diaspor təşkilatları ilə müvafiq ölkələrin dövlət və qeyri-hökumət təşkilatları arasında əlaqələrin qurulması və genişləndiril-məsinin tədqiqi, eləcə də diaspor təşkilatlarının maliyyə mənbələrinin aşkara çıxarılması;

– erməni diaspor təşkilatlarının həyata keçirdikləri antitürk fəaliyyətinin səbəblərinin öyrənilməsi və türk dünyası üçün doğurduğu nəticələrin təhlili;

– qondarma "erməni soyqırımı"nı tanıyan ölkələrin coğrafiyasının genişləndirilməsi və bununla əlaqədar olaraq Türkiyəyə qarşı təzminat davasının açılmasına, qonşu ölkələrə qarşı (Azərbaycan, Gürcüstan, Türkiyə) yeni ərazi iddialarına sövq edən amillərin dəqiqləşdirilməsi;

– diaspor ermənilərinin mühüm dövlət vəzifələrinə irəli çəkilməsində, erməniçiliyin təşkilatlandırılması prosesində erməni kilsəsinin yeri və rolunun araşdırılması;

– Ermənistan Respublikasının dövlət siyasətinin tərkib hissəsinə çevrilmiş "dövlət terrorizmi"nin maliyyələşdirilməsi, onun bu proseslərdə yeri və rolunun araşdırılması, Ermənistan-diaspor əlaqələrinin fəallaşması

və Azərbaycana qarşı birgə mübarizəsinin nəticələrinin hərtərəfli və geniş şəkildə tədqiqi.

**Tədqiqatın nəzəri-metodoloji əsası**. Tədqiqatın nəzəri-metodoloji əsasını erməni diasporu probleminə nəzəri yanaşma, konseptual baxış, həmçinin problemin sistemli tədqiqi təşkil edir. Problemlə bağlı məsələlər konkret tarixi təhlillər əsasında, həm də bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi surətdə öyrənilməsi əsasında sistemləşdirilmiş, fakt və hadisələrin ümumiləşdirilməsi ilə mövzunun ümumi mənzərəsini yaratmağa səy göstərilmişdir. Mövzu tədqiq edilərkən başlıca meyar olaraq tarixilik, elmilik, tarixi fakt və hadisələrə obyektiv və tənqidi münasibət, müqayisəli təhlil əsas tədqiqat prinsipi və üsulları kimi seçilmişdir. Müqayisə və təhlilə cəlb edilmiş tədqiqat əsərləri, görkəmli dövlət xadimləri və tarixçi alimlərin mülahizə və elmi ideyaları işin elmi nəzəri bazasını zənginləşdirmişdir. Tədqiqat prosesində ümumi məntiqi metodlardan − analiz, sintez, ümumiləşdirmə, habelə tarixi-müqayisə və sistemli yanaşma üsullarından istifadə olunaraq çoxsaylı ədəbiyyat və arxiv sənədlərinin elmi təhlili verilmişdir.

**Tədqiqatın mənbə bazası.** Tədqiq olunan mövzu üçün xeyli miqdarda sənəd və materiallara istinad olunmuş, elmi dövriyyəyə yeni materialların cəlb olunmasına xüsusi fikir verilmişdir. İlk dəfə olaraq Osmanlı arxivlərinin materialları (T.C.Başbakanlık Devlet Arşivleri Genel müdürlügü, Cümhuriyyet Arşivi Daire Başkanlığı, Yayın Nu: 28, Ankara 2001[1]; T.C.Başbakanlık Devlet Arşivleri Genel müdürlügü, Osmanlı Arşivi Daire Başkanlığı, Yayın Nu: 14, Osmanlı belgelerinde ermeniler (1915-1920), Ankara, 1994[2] ilə yanaşı, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət-Tarix Arxivinin[3], Azərbaycan Respublikası Dövlət Tarixi Arxivinin[4] materialları tədqiqata cəlb olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işi problemin qoyuluşu, onun təhlili və elmi nəticələri ilə Azərbaycan tarix elmində XIX-XX əsrlərdə erməni diasporunun formalaşması, strukturu, coğrafiyası, maliyyə mənbələri, dövlət və qeyri-hökumət təşkilatları ilə əlaqələri, diasporun formalaşmasında erməniçilik ideologiyasının iştirakı, eləcə də dünyanın müxtəlif ölkələrində təşkilatlanmış erməni diaspor təşkilatlarının antitürk fəaliyyəti

[1] T.C. Başbakanlık Devlet Arşivleri Genel müdürlügü, Cümhuriyyet Arşivi Daire Başkanlığı, Yayın Nu:28, Ankara 2001

[2] T.C.Başbakanlık Devlet Arşivleri Genel müdürlügü, Osmanlı Arşivi Daire Başkanlığı, Yayın Nu:14, Osmanlı belgelerinde ermeniler (1915-1920), Ankara, 1994

[3] Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Dövlət Tarix Arxivi

[4] Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi

tarixini arxiv sənədləri və materialları əsasında obyektiv və kompleks şəkildə araşdıran ilk tədqiqat işidir.

Dissertasiyada ilk dəfə olaraq erməniçiliyin əsasları, ideoloji-fəlsəfi aspektləri, Azərbaycan və Türkiyəyə qarşı çirkin məqsədləri elmi şəkildə tədqiq edilir, erməni diasporu strukturunun formalaşması və erməni terrorçu dəstələrinin maliyyələşdirilməsində erməni kilsəsinin fəaliyyəti tutarlı faktlarla işıqlandırılır.

Azərbaycan tarixşünaslığında erməni diasporunun coğrafiyası, strukturu, dövlət və qeyri-hökumət təşkilatları ilə əlaqələri, xaricdəki erməni diaspor təşkilatlarının maliyyə mənbələri, həmçinin "Hay Dad" doktrinasının hüquqi-siyasi mahiyyəti və Azərbaycana qarşı əsas hədəfləri, dünyadakı erməni diaspor təşkilatlarının türk dünyasına, o cümlədən Azərbaycana qarşı bədnam fəaliyyətləri arxiv sənədləri və mötəbər mənbələr əsasında dəqiqləşdirilir. Erməni diasporunun antitürk fəaliyyətinin siyasi-strateji hədəfləri sanballı mənbələr konteksində aşkarlanaraq Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsinin nəticələrinə ilk dəfə olaraq münasibət bildirilir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti**. Tədqiqat işi XIX-XX əsrlərdə erməni diasporunun formalaşması və antitürk fəaliyyətinin bütün aspektlərinin öyrənilməsi baxımından mühüm elmi-praktik əhəmiyyətə malikdir. Tədqiqatın elmi nəticə və müddəalarından erməni diasporunun coğrafiyası, strukturu, əlaqələri, maliyyə mənbələri, həmçinin müxtəlif ölkələrdə diasporun təşkilatlanması və antitürk fəaliyyətinin mahiyyətinin açıqlanması üçün istifadə edilə bilər. Bu baxımdan tədqiqat işi həm təbliğat, həm də maariflənmə vəsaiti, elmi istinad mənbəyi kimi əhəmiyyət kəsb edir. Dissertasiya işi erməni diasporu probleminin öyrənilməsinə, "erməni məsələsi" və Qərb dövlətlərinin antitürk fəaliyyəti probleminə dair ümumiləşdirilmiş tədqiqat əsərlərinin yazılmasında, Türkiyə və Azərbaycan respublikalarının, Xarici İşlər Nazirliyinin, Diasporla iş üzrə Dövlət Komitəsinin, müvafiq hökumət və qeyri-hökumət təşkilatlarının əməli fəaliyyətində, türk dövlətlərinin müasir tarixinə dair dərslik, dərs vəsaiti və monoqrafiyaların hazırlanmasında yardımçı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları və nəticələri iddiaçının elmi-nəzəri, elmi-praktik konfranslardakı çıxışlarında, Azərbaycanda və xarici ölkələrdə nəşr olunan məqalələrində öz əksini tapmışdır. Dissertasiya işi Azərbaycan tarixi kafedrasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, üç fəsil, on bir yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ÜMUMİ MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası müəyyənləşdirilmiş, elmi yeniliyi, əməli-təcrübi əhəmiyyəti verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Erməni diasporunun formalaşmasının ilkin mərhələsi"** adlanır. Bu fəslin **"Erməni diasporunun coğrafiyası, strukturu, əlaqələri və maliyyə mənbələri"** adlanan birinci yarımfəslində diaspor anlayışı və onun nəzəri aspektləri, eyni zamanda xaricdə ilk erməni koloniyalarının yaranması və kolonizasiyalaşma prosesinin sürətlənməsi, erməni diasporunun təşəkkülü və formalaşması prosesinə təsir edən amillər, erməni diasporunun yayılma coğrafiyası, diaspor təşkilatlarının strukturu, dövlət və qeyri-hökumət təşkilatları ilə əlaqələri, erməni diasporunun maliyyə mənbələri tədqiq edilmişdir. I Fəslin ikinci yarımfəslində diasporun formalaşmasında erməni kilsəsinin fəaliyyətindən bəhs olunur. Bildirilir ki, tarixən erməni millətçiliyinin ilhamvericisi və başlıca təşkilatçısı, dövlətçiliyin atributlarından kənarda qalan və siyasi hakimiyyətsizliyin mövcud olduğu dövrdə erməni xalqının üz tutduğu yeganə mərkəz məhz milli erməni kilsəsi olmuşdur. Erməni kilsəsi dünyaya səpələnmiş erməni xalqının birliyinə, onun irqçi milli ideologiyasının formalaşmasına, türk dünyasına qarşı antitürk fəaliyyətinin həyata keçirilməsinə nail olmaq üçün bütün təşəbbüskarlığı və təşkilatçılığı öz üzərinə götürmüşdü.

Yarımfəsildə əsaslandırılır ki, özündə bir neçə siyasi elementləri birləşdirən erməni kilsəsi daim güclü milli dövlət axtarışında olmuş, özünüqoruma instikti, milli-etnik planların həyata keçirilməsi istəyi erməni kilsəsində milli dövlətin mövcudluğuna ehtiyac yaratmışdı. Osmanlı imperatorluğunun və Azərbaycan ərazisindəki müsəlman dövlətlərinin xristianlığa və kilsələrə qarşı dözümlü münasibətindən sui-istifadə edən erməni kilsəsi milli dövlətin əldə edilməsi üçün təcavüzkar vasitələrdən çəkinməmişdir.

XIX əsr, istərsə də XX əsrin əvvəllərində Osmanlı Türkiyəsi və Azərbaycanda baş verən dəhşətli faciələrin törədilməsində erməni kilsəsinin özünəməxsus yeri və rolu vardır. XIX-XX əsrlərdə xaricdəki erməni icmalarının təşəkkülü və formalaşmasında, eləcə də diaspor qurumlarının təşkilatlanmasında erməni kilsəsinin əvəzedilməz xidmətləri olmuşdur.

I Fəslin üçüncü yarımfəslində erməniçiliyin əsasları, onun fəlsəfi-ideoloji aspektləri ilə yanaşı erməniçiliyin diasporun təşəkkülü, təşkilatlanması və inkişafındakı rolundan bəhs olunur. Erməniçilik ideoloji-psixoloji hadisə olaraq faşizm, terrorizm, ekstremizmi, digər xalqlara qarşı, xüsusilə də türk və azərbaycanlılara qarşı törədilən sonsuz soyqırımı aktlarını özündə birləşdirir. Əsaslandırılır ki, erməniçilik bəşəriyyət üçün qlobal bəlaya çevrilməkdədir. Erməniçilikdə qaraçıların etnik psixologiyasının ən iyrənc elementləri, faşizmin insansevməz ideologiyası, digər xoşagəlməz hallar birləşir. Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Rusiya və İsrailin, bəzi Balkan dövlətlərinin tarixən üzləşdiyi "erməniçilik" ideologiyası və ondan yaranan arzuolunmaz proseslərə qüsurlu münasibət və erməniçilik ideologiyasının düzgün dəyərləndirilməməsi bu mürəkkəb sistemlə qarşıdurmaya, qeyri-real proqnozların verilməsi ilə nəticələnir. Bu baxımdan dissertasiyada "erməniçilik" anlayışına yalnız etnomədəni mövqedən deyil, ilk növbədə, politoloji müstəvidən yanaşılmışdır.

Dissertasiyanın ikinci fəsli **"Erməni diasporunun təşkilatlanması və onun antitürk fəaliyyəti"** adlanır. Bu fəsildə xaricdəki erməni diaspor təsisatlarında təşkilatlanma işinin sürətləndirilməsindən, diaspor təşkilatları arasında əməkdaşlığın səviyyəsindən, erməni diasporunun türk dünyasına, o cümlədən Azərbaycana qarşı çirkin fəaliyyətindən bəhs olunur. Fəslin I yarımfəsli postsovet ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin istiqamətlərinə həsr olunmuşdur. Qeyd edək ki, XI əsrdə Şərqi Anadolu ərazilərinin səlcuqlar tərəfindən tutulmasından sonra Ani qalasına sığınmış ermənilərin Qara dəniz sahillərinə, rus torpaqlarına kütləvi şəkildə köçü başladı. Bu proses XVII-XVIII əsrlərdə daha kütləvi xarakter aldı. Bu dövrdən etibarən çar Rusiyasının müxtəlif şəhərlərində iri erməni koloniyaları yaranmağa başladı və koloniyalaşma prosesi daha da sürətləndi. Rus çarları bu "sadiq" etnosa rus torpaqlarında ticarətin və sənətkarlığın inkişaf etdirilməsi məqsədilə bir sıra imtiyazlar verdi. Rusiyada erməni diasporunun formalaşması prosesi XX əsrin 90-cı illərində başa çatdı. Yarımfəsildə Rusiya Federasiyasının ayrı-ayrı şəhər və vilayət mərkəzlərində fəaliyyət göstərən çoxsaylı erməni mədəniyyət mərkəzləri və cəmiyyətlərinin fəaliyyətinə diqqət yetirilir və göstərilir ki, bu cəmiyyətlərin hər biri Moskva şəhərində yaşayan erməniləri öz ətrafında birləşdirir, onlar arasında geniş ictimai-təşkilatı iş aparır. Araşdırmalar göstərdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Rusiya Federasiyasındakı erməni cəmiyyətləri, maliyyə resursları Ermənistana hərtərəfli yardımlar etmiş, Sumqayıt hadisələri, Xocalı soyqırımının Azərbaycan tərəfinin erməni xalqına qarşı qabaqcadan hazırladığı təxribat planları

olduğunu rus cəmiyyətinə sırımağa çalışmışlar. Yarımfəsildə Rusiya ilə yanaşı Gürcüstan, Ukrayna, Pribaltika ölkələrində də erməni diasporunun təşkilatlanması və xaricdəki diaspor təşkilatlarının Türkiyə və Azərbaycana qarşı bədnam fəaliyyəti tədqiq edilmişdir.

II yarımfəsil Yaxın Şərq ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyətinin səciyyəvi xüsusiyyətlərinə həsr olunmuşdur. Müxtəlif vaxtlarda Yaxın Şərq ölkələrinə kütləvi şəkildə erməni axınları nəticəsində İranda, Suriyada, Livanda, Misirdə, Türkiyədə və digər ölkələrdə güclü erməni diasporu formalaşdı. Yaxın Şərq ölkəsi olan Livan erməni diaspor təşkilatlarının mütəşəkkilliyi baxımdan diqqəti cəlb edir. Bu ölkədəki erməni diasporu XX əsrin ortalarına qədər diasporun siyasi mərkəzini təşkil etmişdir. Yaxın Şərqdə siyasi proseslərin kəskin xarakter alması nəticəsində regionda yaşayan erməni icmaları kütləvi surətdə bu əraziləri tərk edərək Avropa və Amerika ölkələrinə miqrasiya etdilər.

İran və Suriyada da güclü struktura, maliyyə mənbələrinə malik erməni diaspor təşkilatları mövcuddur. Onlardakı erməni diasporu erməni icmalarına hərtərəfli dəstək nümayiş etdirərək bir sıra imtiyazlar vermişlər.

Fəslin üçüncü yarımfəslində Avropa ölkələrindəki erməni diasporu, onların təşkilatı strukturu və fəaliyyət istiqamətləri işıqlandırılmışdır. Yarımfəsildə bildirilir ki, dünyada ən güclü erməni diasporunun mövcud olduğu ölkələrdən biri də Fransadır. 1885-ci ilə qədər bir dənə də olsun erməni təşkilatı mövcud olmayan Fransada Portakalyanın səyləri nəticəsində "Ermənistan" adlı dərgi işıq üzü görür. Dərgidə erməni xalqının üzləşdiyi çətinliklər, problemlər, türk xalqlarına qarşı nifrət hissləri geniş əks olunurdu. Fransa ilə yanaşı Almaniya, İngiltərə, İtaliya, Yunanıstan, Kiprdə də güclü erməni diasporu mövcuddur. Bir çox Avropa ölkələrinin parlamentləri səviyyəsində qondarma "erməni soyqırımı"na dair qanun qəbul olunmuşdur. Hətta Fransada soyqırımı inkar edənlərin 45000 avro məbləğində cərimə və 3 il müddətində həbs cəzası da tətbiq edilməkdədir. Bu ölkələrdəki çoxsaylı erməni diaspor təşkilatlarının başlıca məqsədi Azərbaycana qarşı qarayaxma kompaniyaları təşkil etmək, qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanıdılması, Qarabağ və Naxçıvanın əzəli erməni torpaqları olmasına dair əsassız iddialar yaymaqdır.

Fəslin dördüncü yarımfəslində Amerika ölkələrində erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti, həmçinin erməni diasporunun dövlət strukturlarında yeri və roluna həsr olunmuşdur. Məlumdur ki, ABŞ müasir dövrdə erməni diasporunun ən güclü olduğu ölkələrdən biridir və burada 1 milyondan artıq erməni icması mövcuddur. Birləşmiş Ştatlardakı erməni diaspor nümayəndələri dövlət orqanlarında təmsil olunmaqdadırlar.

Erməni lobbistləri və maraq qrupları Senata təzyiq göstərməklə Azərbaycana qarşı təzyiqlərin gücləndirilməsini tələb etməklə məşğuldurlar. Bu ölkədəki erməni lobbisinin ən böyük uğuru 1992-ci ildə Azərbaycana qarşı "907-ci düzəliş"in tətbiq edilməsi ilə bağlıdır. Qanunun qəbulu ilə uzun müddət Azərbaycan ABŞ-ın maliyyə yardımlarından məhrum olundu.

ABŞ-la yanaşı Kanadanın müxtəlif şəhərlərində güclü erməni diasporu mövcuddur. Kanada parlamenti də qondarma "erməni soyqırımı"nı dövlət səviyyəsində qəbul etmişdir. Şimali Amerika ölkələri ilə yanaşı Latın Amerikası ölkələrində də azsaylı erməni diaspor təşkilatları mövcuddur. Braziliya və Argentinada erməni diaspor nümayəndələri dövlətin bir sıra mühüm vəzifələrinə irəli çəkilmişdir. Argentina XİN-də 7 erməni diplomatı işləyir.

Beşinci yarımfəsildə Cənub-Şərqi Asiya ölkələrində və Avstraliyada erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti işıqlandırılmışdır. Ermənilərin icmalar halında birləşməsi, erməni diasporunun rüşeymləri ilk dəfə Hindistanda meydana gəlmişdir. Hindistanın müxtəlif əyalətlərinə səpələnmiş ermənilər Malabarda ilk erməni məktəbi və ilk erməni dilində qəzet olan "Azdarar" adlı qəzet nəşr etdirmişlər. Müasir dövrdə Hindistan, Birma, Tailand və Avstraliyada azsaylı erməni icması mövcuddur.

**"Erməni diasporunun antitürk fəaliyyətinin siyasi-strateji hədəfləri"** adlanan üçüncü fəsildə xaricdəki erməni diaspor təşkilatlarının Türkiyəyə qarşı qondarma "soyqırımı" iddiaları, Azərbaycan və Türkiyəyə qarşı erməni terrorunun kütləvi hal alması və onun ağır nəticələri, o cümlədən ötən əsrin 90-cı illərində Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsindən söhbət açılır. Üç yarımfəsildən ibarət fəslin birinci yarımfəsli xaricdəki erməni diaspor təşkilatlarının Türkiyəyə qarşı qondarma "soyqırımı" iddialarına həsr olunub. Faktlarla göstərilir ki, I Dünya müharibəsinin gedişi zamanı 1915-ci ildə Osmanlı sultanı tərəfindən "Köç" haqqında qanunun qəbul edilməsi nəticəsində terrorçu ermənilər dövlətin cənub ərazilərinə kütləvi şəkildə köçürüldü. Dövlət bunu imperiyanın şərq ərazilərində dinc türk əhalisinin erməni qiyamçılarından xilas edilməsi məqsədilə həyata keçirirdi. Bir sıra Qərb mütəxəssislərinin də etiraf etdiyi kimi, Osmanlı Türkiyəsinin bundan başqa çıxış yolunun olmadığını və atılmış bu addımın son dərəcə yüksək səviyyədə həyata keçirildiyi öz əksini tapmışdır. Müharibənin şiddətli vaxtlarında dövlət xəzinəsindən 82 milyon quruş xərclənməsinə baxmayaraq Türkiyənin təhlükəsiz şəkildə öz ünvanlarına çatdırılan ermənilərə nəzərdə tutulmuş ərazilərdə yüksək şərait yaradılmışdı. Lakin 1916-cı ildən ingilis A.Toynbi Türkiyəyə qarşı soyqırımı iddiaları ilə çıxış etməyə başladı və

onun fikrincə türk hökuməti qabaqcadan hazırlanmış plana uyğun olaraq 1-1,5 milyon ermənini bilərəkdən məhv etdi. Lakin həm Osmanlı arxivlərində mühafizə edilən sənədlərdə, həm də Qərb tarixçilərinin yazmış olduğu mötəbər əsərlərdə soyqırımın saxta olduğu, sadəcə böyük dövlətlərin Türkiyəni bölüşdürmək üçün ortalığa atdığı planın tərkib hissəsi olduğu sübut edildi.

Fəslin ikinci yarımfəslində XIX əsrin sonlarından başlayaraq bir sıra terrorçu erməni siyasi partiya və dərnəklərinin yaranması və terrorçu fəaliyyəti kəskin xarakter alması, Osmanlı imperiyasının şərq ərazilərində dinc türk əhalisinə qarşı kütləvi hal almış erməni terrorunun baş vermə səbəbləri, terroru maliyyələşdirən qurumların aşkar edilməsi, terrora bu və ya digər formada dəstək verən böyük dövlətlərin məkrli planları arxiv sənədləri və son dərəcə mötəbər tədqiqatlar əsasında tədqiq edilmişdir. Araşdırmalar təsdiq edir ki, Şərqi Anadoluda, Zeytunda, Vanda, Qarsda, Sasunda erməni terrorçuları və millətçi ekstremistlər dinc türk əhalisini kütləvi şəkildə qətlə yetirmiş və nəticədə 2 milyondan artıq müsəlman erməni vəhşiliyinin qurbanına çevrilmişdir. Erməni terrorçuları və onların havadarlarının başlıca məqsədi Şərqi Anadolunun "Vilayəti Sittə" adlanan 6 əyalətini türklərdən təmizləmək, burada "Türksüz Ermənistan" yaratmaq və Hindistana uzanan ticarət yollarını öz aralarında bölüşdürməkdən ibarət idi. Ancaq 2 milyondan artıq müsəlmanı qətlə yetirən erməni terrorçuları məsuliyyətə cəlb edilmədi. I Dünya müharibəsi başa çatdıqdan sonra erməni terroru yeni bir mərhələyə qədəm qoydu. "Nemesis" adlı erməni terror təşkilatı tərəfindən AXC-nin nüfuzlu dövlət xadimləri – H.Ağayev, B.Cavanşir, F.X.Xoyski və digər cümhuriyyət qurucularına qarşı terror cinayəti həyata keçirildi. Yalnız 30-cu illərdə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər səbəbilə erməni terroru arxa plana keçirildi. XX əsrin 70-80-ci illərindən etibarən yenidən erməni terroru tuğyan etməyə başladı. Türkiyə diplomatlarına qarşı tətbiq edilmiş terror aktları nəticəsində 34 təcrübəli diplomat vəhşicəsinə qətlə yetirildi. 90-cı illərdə Azərbaycanı hədəfə almış erməni terrorçuları tərəfindən 32 terror aktı həyata keçirildi və nəticədə minlərlə azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu.

Fəslin sonuncu yarımfəslində Ermənistan-diaspor əlaqələrinin fəallaşması və Azərbaycana qarşı birgə mübarizəsindən bəhs edilir. SSRİ-nin süqutu nəticəsində Ermənistanın müstəqillik əldə etməsi xaricdəki erməni diaspor təşkilatlarının bu ölkə ilə əlaqələrinin fəallaşmasına təkan verdi. Diaspor təşkilatları mövcud vəziyyətdən istifadə edərək müharibə şəraitində olan Ermənistana həm siyasi, həm də iqtisadi formada dəstək adı altında milyonlarla dollar həcmində vəsait Dağlıq Qarabağda aparılan hərbi

əməliyyatlara yönəldildi. Diaspor təşkilatlarının Ermənistan üzərində təzyiqləri gücləndirdiyini anlayan Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan diasporun təzyiqlərindən azad olmaq məqsədilə ölkədəki bütün diaspor təşkilatlarının fəaliyyətini qadağan etdi. 1998-ci ildə Petrosyanın müəmmalı şəkildə devrilməsindən sonra diaspor təşkilatları tərəfindən dəstəklənən Robert Köçəryan hakimiyyətə gətirildi və onun ilk işi vaxtilə Ter-Petrosyan tərəfindən fəaliyyətinə qadağan qoyulmuş diaspor təşkilatlarının fəaliyyətinə yaşıl işıq yandırması oldu.

Dissertasiyanın Nəticə hissəsində aparılmış tədqiqata yekun vurulmuş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilmə ardıcıllığı və başlıca ümumiləşdirmələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Erməni diasporasının qondarma "erməni soyqırımı"nın saxtalaşdırılmış təbliği.(1920-1930-cu illər) // Tarix və onun problemləri, Bakı: BDU-nun nəşriyyatı, 2009, №4, s. 91-95
2. Erməni diasporasının təşəkkülü və formalaşması / Doktorantların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransının materialları. Bakı: ADU nəşriyyatı, 2010, s. 86-87
3. XX əsrin I yarısında erməni diasporunun antitürk fəaliyyəti // Dirçəliş-XXI əsr, Bakı, AMEA-nın nəşriyyatı, iyul-avqust, 147-148, 2010, s. 362-373
4. ABŞ-da erməni diasporunun formalaşması və antitürk fəaliyyəti // Pedaqoji Universitet Xəbərləri. Humanitar elmlər bölməsi. №6, 2010, s. 148-156
5. XI-XVIII əsrlərdə Rusiya ərazilərinə ermənilərin miqrasiyası və erməni koloniyalarının meydana gəlməsi // Dirçəliş-XXI əsr, Bakı, AMEA-nın nəşriyyatı, yanvar-fevral, 153-154/2011, s. 287-296
6. Yaxın Şərq ölkələrində erməni diasporunun formalaşması və antitürk fəaliyyəti / Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları, Bakı, BDU-nun nəşriyyatı, 2011, s. 298-300
7. Rusiyada erməni diasporasının formalaşması və antitürk fəaliyyəti // Dirçəliş-XXI əsr, Bakı, AMEA-nın nəşriyyatı, iyul-avqust, 158-159/2011, s. 284-296
8. SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda gedən geosiyasi proseslər və erməni diasporunun destruktiv fəaliyyəti / Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər. Gənc tədqiqatçıların 2 fevral-Gənclər gününə həsr edilmiş ümumrespublika elmi-praktik

konfransının materialları, Bakı, Azərbaycan Müəllimlər İnstitutunun nəşriyyatı, 2011, s. 170-172

9. XX əsrin II yarısında qondarma "erməni soyqırımı" abidələrinin ucaldılmasında erməni diasporasının rolu / Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları, Bakı, Azərbaycan Müəllimlər İnstitutunun nəşriyyatı, 2011, s. 172-176

10. XIX-XX əsrin əvvəllərində Gürcüstanın Kvemo-Kartli (Borçalı) və Samtsxe-Cavaxetiya bölgələrinə ermənilərin kütləvi şəkildə köçürülməsi / Respublika Elmi Konfransının Materialları, Sumqayıt, 2011, s. 203

11. Erməni diasporunun maliyyə mənbələri / Doktorantların və gənc tədqiatçıların XVI Respublika Elmi Konfransının Materialları, Bakı, Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəşriyyatı, 2012, s. 171-173

12. Uruqvayda erməni icmasının yaranması və antitürk fəaliyyəti / Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransının Materialları. Bakı, Qafqaz Universitetinin nəşriyyatı, 2013, s. 178-179

13. Argentinada və Braziliyada erməni diasporu / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının Materialları. II clddə. I cild. Bakı: Mütərcim, 2013, s. 326-328

14. Qondarma erməni soyqırımı faktların dili ilə. Bakı: Apastrov Çap Evi, 2013, 217 s.

15. XX əsrdə Gürcüstanda erməni diasporunun formalaşması və antitürk fəaliyyəti // Tarix və onun problemləri, Bakı, 2013, №3, s. 152-160

16. Ermənilərin Güney Qafqaza köçürülməsində Rusiyanın ro-lu / V Uludağ Uluslararası ilişkiler konferansı, Barış ve Süverenliğin Yeniden İnşaası, Uludağ Universiteti, 2013, s. 599-607

17. Финансовые источники армянской диаспоры // Национальный Гилея Науковый весник, Выпуск 90 (№11), Киев, 2014, с. 176-179

18. Erməni kilsəsinin yaranması və diasporun təşkilindəki fəaliyyətinə dair // Tarix və onun problemləri, 2014, №1, s. 143-153

19. İngiltərədə erməni diasporunun təşkilatlanması və antitürk fəaliyyəti // Tarix və onun problemləri, Bakı: 2015, №1, s. 205-211

20. Ermənistan-diaspor əlaqələrinin fəallaşması və türk dünyasına qarşı birgə mübarizəsi (XX əsrin 90-cı illəri) // Tarix və onun problemləri, Bakı: №3, 2015, s. 163-169

21. Erməniçiliyin təşkilatlandırılmasında diaspora ictimai siyasi alət kimi // Bakı Dövlət Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), Bakı, 2015, №3, s. 174-182

22. Erməni terrorizmi diasporun fəaliyyət istiqamətlərindən biri kimi // Tarix və onun problemləri, Bakı, 2015, №4, s. 271-279

23. Erməni diasporunun antitürk fəaliyyətində qondarma “soyqırımı” iddiaları / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 və hakimiyyətə qayıdışının 22-ci ildönümünə həsr olunmuş “Uydurma erməni soyqırımı: yalanlar, iftiralar; Türk-müsəlman soyqırımı: Faktlar, həqiqətlər” mövzusunda II Beynəlxalq elmi konfransın materialları, Bakı, AU-nun nəşriyyatı, 2015, s. 341-345

24. Организационное устройство и антитурецкая деятельность армянской диаспоры во Франции // Современная научная мысль, Москва, 2016, №2, с. 39-48

*Джафаров Талех Вазир оглу*

## «Формирование и антитурецкая деятельность армянской диаспоры в XIX-XX веках»

## РЕЗЮМЕ

Впервые в Азербайджанской историографии комплексному изучению был привлечен вопрос образования, организации и деятельности армянской диаспоры против турецкого мира, в том числе и против Азербайджана. Определенные вопросы проблемы были достоверно освещены в работах многих армянских, русских и западных исследователей, но порой эти факты были фальсифицированы. В данной диссертации были исследованы и обобщены вопросы формирования организации антитурецкой деятельности армянской диаспоры в XIX-XX веках.

Диссертация состоит из введения, трех глав, одиннадцати параграфов, заключения, списка использованной литературы и дополнений.

Во введении обоснована актуальность исследования, указаны хронологические рамки исследования, комментируется степень изученности и источниковедческая база, определены цель, задачи и методологическая основа исследования, указана научная новизна и практическая значимость исследования.

В первой главе диссертации, которая называется «Начальная стадия формирования армянской диаспоры», исследованы вопросы образования армянских диаспорских организаций, а также политико-стратегические цели против Азербайджана, изучены идеологические и философские аспекты формирования и организации армянства, роль армянской церкви в формировании армянской диаспоры и ее преступные действия против Азербайджана, география ее распространения, ее структура и связи с государственными и неправительственными организациями, а также выявлены ее финансовые источники.

Во второй главе, которая называется «Организация армянской диаспоры и ее антитурецкая деятельность», рассмотрены вопросы объединения, организации и антитурецкая деятельность армян из различных стран мира, где они были разбросаны на основе архивных документов и достоверных источников. Изучены вопросы деятельности армянских диаспорских организаций в Европе, Америке и в странах Ближнего Востока против турецкого мира, и особенно против Азербайджана. Особое место уделено проблеме «907-ой поправки», которую

приняли США против Азербайджана и роль в ее принятии армянской диаспоры и лобби.

В третей главе, которая называется «Политико-стратегические цели антитурецкой деятельности армянской диаспоры», на основе архивных документов и достоверных источников изучены вопросы претензий армянских диаспорских организаций о выдуманном «геноциде армян» в Турции, а также исследованы и обобщены вопросы террора, совершенного армянами против турецкого мира, а также против Азербайджана. Здесь также нашли свое отражение и факты террора армян в 70-80-годах прошлого столетия против турецких дипломатов, мисссий и организаций в разных странах по всему миру и факты убийства 34 опытных дипломатов. Исследованы также юридические и политические аспекты доктрины «Hay Dad» против Азербайджана и усиление в этом деле связей армянской диаспоры в 90-годах XX века.

В заключении автор дает обобщения и делает выводы своим исследованиям.

*Taleh Vezir Jafarov*

**"The formation of the Armenian lobby and its anti-Turkish activities in the XIX-XX centuries"**

## SUMMARY

For the first time in the Azerbaijani historiography, it was systematically touched the problem of creation of the Armenian diaspora organizations abroad, their formation and activities against the Turkish world, especially, against Azerbaijan in the XIX-XX centuries. The definite sides of the problem weren't researched objectively in the works of many an Armenian, Russian and western researcher, even sometimes it was falsified on purpose. In the research work which intends to introduce the critical analysis of such works, the formation and the anti-Turkish activities of the Armenian lobby in the XIX-XX centuries were investigated.

The research work consists of entry, three chapters, eleven semi chapters, result, the used literature and additions.

In the entry, the actuality of the theme was proved, as well as, its chronological frames were shown, the level of learning and the basis of resources were explained, the aims and duties and the methodical basis of the research were defined, the innovation and the scientific and practical significance of the research work were introduced.

In the first chapter called "The initial stage of the formation of the Armenian lobby", it was revealed the basis and the ideological-philosophical aspects of Armenism which took part in the creation, formation and organizing of the Armenian diaspora establishments abroad, its political-strategic aims against Azerbaijan were investigated, the crimes committed in the Turkish world, as well as, in Azerbaijan by the Armenian church, which played important role in in the formation of the diaspora, the geography of spreading of the diaspora, its organizational structure, relations with the government and non-governmental organizations and its financial sources.

In the second chapter which is called "The organizing and anti-Turkish activities of the Armenian diaspora", it was researched the uniting of the Armenians spread to the different countries of the world in different times, in the form of the diaspora, as well as, their organization and anti-Turkish activities on the basis of the archive documents and reliable sources. Especially, it was analysed widely the activities of the Armenian

diaspora organizations in the Europe, the America and the Near East against the Turkish world, as well as, against Azerbaijan, the disgraced activities of the Armenian lobbyists and interest groups in the US and France against Azerbaijan and Turkey, the adoption of the "Addition number 907 to the Liberty Defence Act" of the US Senate against Azerbaijan and the criminal activities of the Armenian diaspora and lobby establishments in this process.

In the third chapter called "The political-strategic aims of the anti-Turkish activities of the Armenian diaspora", the ambitions of the so-called "genocide" of the Armenian diaspora organizations against Turkey were revealed on the basis of the archive documents and reliable sources. Also, the Armenian terror which the Turkish world, as well as, Azerbaijan exposed to during XIX-XX centuries and its results were researched and analyzed. Moreover, the Armenian terror committed on a mass scale against the Turkish ambassadors, diplomatic missions and organizations in the big countries of the world in the 70s and 80s of the last century and facts of the killing of 34 experienced Turkish diplomats were approved in the remarked chapter. The juridical-political essence of the "Hay Dad" doctrine and its main aims against Azerbaijan, as well as, the activeness of Armenia-diaspora relationship observed in the 90s of the XX century, and their struggle against Azerbaijan together were investigated, too.

In the result, the author gave the consequent generalization to his research.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ТАЛЕХ ВАЗИР оглы ДЖАФАРОВ**

# ФОРМИРОВАНИЕ И АНТИТУРЕЦКАЯ ДЕЯТЕЛЬНОСТЬ АРМЯНСКОЙ ДИАСПОРЫ В XIX-XX ВЕКАХ

**Специальность: 5503.02-Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ-2016**